# Xaçmaz: Uğurlar göz qabağındadır

■ ***Bütün dövrlərdə hesabat vermək kimlər üçünsə asan, kimlər üçünsə çətin və arzuolunmaz iş hesab edilib. Təbii ki, günləri, ayları, illəri səmərəsiz keçirənlər, qüvvə və imkanları vaxtında və düzgün səfərbər edə bilməyənlər hesabat məqamı gələndə çətin duruma düşür, nəticələr barədə danışmaqdan daha çox bəhanələr uydurmaq məcburiyyətində qalırlar.***

Amma o kəslərin, yaxud kollektivlərin ki, müəssisə və təşkilatların ki, işləri qaydasındadır, onlar üçün hesabat verməyə nə var?! Bu mənada Xaçmaz Rayon İcra Hakimiyyəti rəhbərliyinin əvvəlki illərdə olduğu kimi, 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında da deməyə kifayət qədər sözü var idi.

Rayon icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevin hesabat məruzəsində əvvəlcə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramından irəli gələn vəzifələr xatırlandı. Qeyd olundu ki, dövlət proqramı çərçivəsində Xaçmaz rayonunda sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi, yol təsərrüfatı, elektrik, təbii qaz, istilik və su təchizatı, təhsil, səhiyyə, mədəniyyət, idman obyektlərinin tikintisi, mənzil təsərrüfatı, abadlıq-quruculuq və digər istiqamətlərdə kifayət qədər irihəcmli işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu. Bu sahədə qarşıda duran vəzifələr uğurla həyata keçirilmişdir.



Hesabat məruzəsində qeyd olunduğu kimi, 2015-ci ildə rayon üzrə ümumi məhsul istehsalı 387,9 milyon manat, sənaye məhsulunun həcmi 34,9 milyon manat, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 203,8 milyon manat, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 85,2 milyon manat, pərakəndə əmtəə dövriyyəsinin həcmi 335 milyon manat, əsas kapitala yönəlmiş investisiyaların həcmi 29,9 milyon manat, adambaşına düşən pul gəlirləri 2238,6 manat, orta aylıq əmək haqqı 309,9 manat təşkil etmişdir. Nəqliyyat xidmətlərinin həcmi 6,2 milyon manat, rabitə xidmətlərinin həcmi 1,1 milyon manat olmuşdur. İl ərzində ümumi sahəsi 28940 kvadratmetr olan mənzil tikilib istifadəyə verilib. Əhalinin maddi rifahının yaxşılaşdırılması və əlavə iş yerlərinin açılması istiqamətində ölkə rəhbərliyinin tapşırığına əsasən bir sıra əhəmiyyətli tədbirlər görülmüşdür. Nəticədə rayonda 1424, o cümlədən rayon icra hakimiyyətinin tabeliyində olan müəssisələrdə 465 yeni iş yeri açılmış və bu proses davam etməkdədir.

Əvvəlki illərdə olduğu kimi, hesabat dövründə də rayonda geniş miqyaslı abadlıq-quruculuq işləri davam etdirilmiş, “Çənlibel” istirahət parkında yenidənqurma işləri aparılmış, rayon ərazisindəki körpülər təmir edilmiş, Xaçmaz və Xudat şəhərlərinin görkəmini daha da gözəlləşdirən müxtəlif memarlıq elementləri tikilmiş, uşaqlar üçün yeni attraksionlar quraşdırılmışdır. “Şəxsiyyətlər muzeyi” ərazisindəki müxtəlif təyinatlı binalar milli üslubda üzlənmiş, açıq səma altında muzeydə tanınmış şəxsiyyətlərə aid yeni büstlər ucaldılmış, beləliklə də oradakı abidə və büstlərin ümumi sayı 55-ə çatdırılmışdır. Bunlardan əlavə, rayon rabitə evinin fasadında yenidənqurma işləri aparılmış, H.Z.Tağıyev küçəsində bulaq kompleksi inşa edilmiş, ulu öndərin adını daşıyan parkda Heydər Əliyev Mərkəzinin yeni ikimərtəbəli binasının tikintisinə başlanmış, çoxdandır ki, fəaliyyət göstərməyən “Xəzər” kinoteatrının binası əsaslı təmir edilərək, yenidən qurulmuşdur.

2015-ci ildə Xaçmazın inzibati rayon kimi təşkil olunmasının 85 illiyi tamam oldu. Xatırladaq ki, 2005-ci ildə Xaçmazın 75 və 2010-cu ildə 80 illik yubileyləri də yüksək səviyyədə qeyd olunmuşdur. Ötən yubileylərdə olduğu kimi, bu dəfə də Prezident İlham Əliyev rayonun ictimai-siyasi həyatında xidmətlərinə görə bir qrup sakini xüsusi sərəncamla təltif etdi.





İl ərzində abonentlərə 10364200 manat dəyərində elektrik enerjisi satılmış, bunun müqabilində 7829600 manat vəsait toplanmışdır ki, bu, istehlak edilən enerjinin cəmi 75,5 faizini təşkil edir. Əlbəttə, bu göstərici ilə heç cür razılaşmaq olmaz, istehlak olunan enerjinin dəyəri 100 faiz ödənilməlidir.

Rayon əhalisinin təbii qazla təchizatı, yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində də hesabat ilində əhəmiyyətli işlər həyata keçirilmişdir. Belə ki, il ərzində rayonun 23 kəndinə qaz çəkilmiş, hazırda daha 2 kəndə qaz çəkilişi davam edir. Beləliklə, rayon üzrə qazlaşdırılmış yaşayış məntəqələrinin sayı 89-a, abonentlərin sayı isə 28583-ə çatdırılmışdır. İstehlak olunan təbii qazın dəyəri 92,7 faiz ödənilmişdir. Lakin abonentlərə təbii qazın bərabər qaydada çatdırılmasında hələ də müəyyən problemlər qalmaqdadır.

Ötən il 6 kəndi birləşdirən və 10 kilometr uzunluğu olan Qusarçay – Pirquluoba – Yeni həyat avtomobil yolu tikilib istifadəyə verilmiş, Müzəffəroba kəndinə yeni rabitə xətti çəkilmiş, kənd telefonlaşdırılmış, Həsənqala, Yergüc, Müşkür, Seyidlikəndyeri yaşayış məntəqələrinə yüksək sürətli internet avadanlıqları quraşdırılıb istifadəyə verilmişdir. Rayonun ayrı-ayrı yaşayış məntəqələrində 6 yeni elektron ATS tikilib istifadəyə verilmiş, 188 abonentə yeni telefon, 625 abonent üçün isə internet çəkilmişdir.

2015-ci ildə Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi həyata keçirilməyə başlamışdır. Bu layihəyə görə, rayon ərazisində 153 kilometr su, 151 kilometr kanalizasiya xətlərinin çəkilməsi nəzərdə tutulur. Podratçı təşkilatlar tərəfindən ilkin olaraq 2 ədəd 3000 və 2 ədəd 2000 kubmetrlik su anbarları tikilmiş və xətlərin çəkilişinə başlanmışdır. Əhalinin suvarma suyu ilə təchizatının yaxşılaşdırılması məqsədilə rayonun 7 kəndində subartezian quyuları qazılmışdır.



Hesabat məruzəsində qeyd olunduğu kimi, Xaçmaz iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Möhtərəm Prezidentimiz tərəfindən “Kənd təsərrüfatı ili” elan edilmiş 2015-ci il rayonun kənd əməkçiləri üçün də uğurlu olmuşdur. Belə ki, il ərzində rayon üzrə ümumilikdə 203,8 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. 31465 hektar sahədə əkilmiş taxılın hər hektardan 33 sentner olmaqla 104000 ton məhsul istehsal edilmişdir ki, bu da Xaçmaz üçün rekord göstəricidir. Ötən il 121,672 ton tərəvəz, 100 min tona yaxın meyvə, 11393 ton kartof, 1301 ton bostan bitkiləri, 32286 ton yem bitkiləri istehsal edilmişdir.

2016-cı ilin məhsulu üçün 32590 hektar sahədə dənli bitkilər əkilmişdir ki, bu da əvvəlki ildən 1200 hektar çoxdur. İl ərzində 48640 ton süd, 12255 ton ət, 209 milyon ədəd yumurta istehsal edilmiş, qaramalın baş sayı 57275, davarların baş sayı 87274 olmuşdur.

Yalama Dövlət damazlıq müəssisəsinin bazasında ən müasir texnologiyalara əsaslanan pilot heyvandarlıq – südçülük müəssisəsinin – aqroparkın yaradılması davam edir. Ümumi sahəsi 523 hektar olan aqroparkda 1000 başlıq heyvandarlıq kompleksi, gücü saatda 5000 ton olan yem zavodu quraşdırılmış, təsərrüfatın fasiləsiz su təminatı üçün tutumu 50000 kubmetr olan su hovuzu tikilmişdir. Növbəti mərhələdə aqroparkda gündəlik emal gücü 50 ton olan süd zavodu, 10 hektar ərazidə müasir istixana kompleksinin yaradılması, 100 hektar sahədə isə meyvə bağının salınması nəzərdə tutulur.

Hesabat məruzəsində 2015-ci ilin yekunları təhlil olunmaqla yanaşı, 2016-cı ilin vəzifələri barədə də ətraflı söhbət açıldı:

– Qarşıda daha böyük vəzifələr durur. Biz 2016-cı ildə daha səmərəli işləməli, planlaşdırdığımız layihələri vaxtında və keyfiyyətlə başa çatdırmağa çalışmalıyıq. Bunu bizdən ölkəmizin sürətli inkişafı, möhtərəm Prezidentimizin yorulmaz fəaliyyəti və rayonumuza göstərdiyi yüksək diqqət və qayğı tələb edir. İnanıram ki, birgə səylərimizlə biz bu il də qarşımuzda duran vəzifələrin öhdəsindən gəlməklə ölkəmizin inkişafına öz layiqli töhfələrimizi verəcəyik.

Hesabat məruzəsi ətrafında işgüzar müzakirələr olmuşdur. Prezident Administrasiyasının məsul işçisi Niyaz Əliyev yığıncaqda çıxış etmişdir.

Yığıncaq iştirakçıları tərəfindən Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə müraciət qəbul olunmuşdur.



***Q. CƏFƏROĞLU,***
***“Xalq qəzeti”***